# soraǧında

burada isti olmazdı. Həmişə soyuq olurdu. qış-yay, həmişə, indi isə isti idi. İsti.

Hamı uçurulmuş, dağıdılmış evləri yenidən tikirdi.

Küçələr abadlaşırdı".

Bu, soyuğun istisidir, ya istinin soyuğu, bu, dağıntının abadlığıdır, ya abadlığın dağıntısı?..

Bu, həyatın paradokslarıdır!.. İsti-soyuqluğu, dağıntısı-bərpası ilə!..

Bunu gələcəyin böyük yazıçısı deyir... Gənc yaşlarında!..

Özü də elə bir dillə deyir ki, elə bil qırx ilin söz-söhbətini sinəsində cəmləmiş ustaddır...

"Axşam düşhadüş idi.

Sağda Ay çıxırdı, solda günəş batırdı - onlar Masallıdan gələndə.

Günəş qıpqırmızı, girdə, Ay - ağappaq, yarımçevrə idi, elə bil qəlibə salınmış bir tikə bulud parçasıydı"...

Elçin ilk gəncliyindən detalçıdır. Təsvir elədiyi hər şeydə ən incə məqamlara qədər gedir. Və bu cür təsvir incəliyi (və detalçılığı), qəribədir ki, adamı nəinki yorur, hətta sənin təsəvvürün qarşısında elə bir meydan açır ki, özün də həmin təsvirin müəllifinə qoşulmaq istəyirsən ki, bir az da təfsilata getsin. O qədər getsin ki, bu təfsilatda əriyib itəsən - , ağrın-acın gedə - , ovsunlanasan, adam olasan...

"Hərdən Ay maşınla birgə qabağa qaçırdı, günəş dala qalırdı, ya da günəş qabağa qaçırdı, Ay geri qalırdı - günlərlə, aylarla, illərlə səhərdən axşamacan günün altında qalıb dalğalanmış asfaltın sağa-sola burulmasındanıydı"...

"Səlim, Fatma və hacıleyləklər..." hekayəsində gənc müəllifin bir ustalığı bu cür təsvir-təfərrüatların estetik təsirliliyindədirsə, digəri qəhrəmanların təbii hiss-ovqatlarının qarşılaşdırılmasında - Səlimin gələcək ailə ilə bağlı kişi laqeydliyi ilə Fatmanın təhtəlşüur qadın-ana məsuliyyətindədir...

"Bir azdan anaları yeməklə qayıdırdı. Dörd balası onu hər tərəfdən əhatə edib necə olursa-olsun, bir-birinə macal vermədən dimdiklərini analarının ağzına soxmaq istəyirdilər. Müvazinətlərini itirməsinlər deyə qanadlarını açıb o yana- bu yana yelləyirdilər-elə bil nəhəng ağ çiçəkdir, yel əsib ləçəklərini tərpədir"...

Kişi "cəmiyyət"in, qadın isə "təbiət"in övladı imiş... Qadın kişi qədər ictimai. kişi qadın qədər təbii deyilmiş...

Və "Bir nəfər qanlı oğlan haqqında" hekayə də bunun satirik təcəssümüdür... "Kişilik" ("ictimailik"!) qadın (təbiət!) önündə "reverens"dən başqa bir şey deyilmiş...

"Meteorlar" yazıçının bütün yaradıcılığı boyu müraciət edəcəyi bədii-fəlsəfi düşüncələrin başlanğıcıdır...

Elçinin "Əsli və Kərəm" adlı "lirik-yumoristik kiçik povest"i məşhur xalq dastanının motivləri əsasında qələmə alınmışdır. Doğrudur, burada nə Kərəm o Kərəmdir, nə də Əsli o Əsli... Ancaq povestin həm bədii strukturunda, həm də qəhrəmanlarının xarakterində məşhur dastandan gələn tanış harmoniya, ovqat, estetik ətir var...

Kərəm anasının təkidi ilə uşaqlıqdan bir yerdə böyüdüyü Əsli ilə ailə qurmağa razılıq verir. Gənclər görüşürlər... Və bu görüşlər elə əvvəlcədən hiss etdirir ki, onları bir-birinə çəkəcək, Əsli- Kərəm edəcək heç bir qüvvə yoxdur. Hər iki tərəfdən anaların təkidi nə qədər güclü olsa da, gənclərin münasibətlərində özünü göstərən prozaiklik gülməli hadisələrə gətirib çıxarır... Ancaq bu görüşlər onların hər ikisində o vaxta qədər dərk etmədikləri hissləri oyadır: məlum olur ki, Kərəm Fəridəyə, Əsli isə Fikrətə biganə deyilmiş...

"Əsli Kərəmə baxdı, Kərəm Əsliyə və bu an mən bütün varlığımla dərk etdim ki, onlar - Əsli və Kərəm - lap ürəklərinin dərinliklərinə kimi bir-birini başa düşdülər. Elə başa düşdülər ki, nə söz lazım gəldi nə də təbəssüm...

...Əsli dedi:

- Kərəm, gəl dost olaq.

Kərəm onun tələffüzündə bu unudulmaz gecə ilə həmahəng olan elə bir səmimiyyət hiss etdi ki, cavab vermədi. Elə bil vüsal və hicranı özündə birləşdirmiş bu pauzanı pozacağından çəkindi. Sonra:

- Məgər dost deyilik!?! - dedi.

- Yox, bilirsən, həmişə dost olaq, ömrümüzün axırına qədər! Yaxın yoldaş, dost olaq! Bir-birimizi sevək... bacı-qardaş kimi...

Nə gözəl gecə idi..."

Maraqlıdır ki, gənclərin bu qeyri-adi qərarını analar əvvəlcə biabırçılıq kimi qarşılayıb özlərindən çıxsalar da, sonralar ona tamamilə təbii baxırlar.

"...Kərəm hələ indiyə kimi heç vaxt Qaradağa belə tələsməmişdi...

Əsli evlərindən çıxıb trolleybusa mindi. Ürəyi atılıb-düşürdü. Əsli hələ indiyə qədər heç vaxt işə gedəndə belə həyəcanlanmamışdı...

Sonra... nə isə...

Əsli, Fikrətə salam söylə. Sən də, Kərəm, Fəridəyə salam de".

"Min gecədən biri" ədəbiyyatşünaslıqda "altmışıncılar" adlanan nəslin ilk bədii manifestlərindən biridir. Və Elçin sonralar həmin nəsil haqqında yazır:

"...Yeni bir nəsil ədəbiyyata gəldi ki, bu, yalnız adi nəsildəyişmə prosesi yox, bədii-estetik hadisə idi və söhbət ayrı-ayrı yazıçıların yaxşı, ya pis yazmağından yox, yaxşı və pisi ilə bərabər, bədii təfəkkür yeniliyindən, sosrealizm müddəalarına münasibətdə yaradıcılıq tipajının dəyişməsindən, istedadın daxili azadlıq əldə etməsindən gedir.

...İnsanları "mənfi" və "müsbət" deyə iki qütbə bölməmək, yalançı həyat "idilliyasını" heç vəchlə qəbul etməyib, həyatı bütün mürəkkəbliyi, qayğıları, problemləri ilə birlikdə ədəbiyyatın predmetinə çevirmək, müstəqilliyi, birbaşalığı əvəz edən psixoloji detalların, ştrixlərin, çalarların vasitəsilə deyilməyənin deyiləndən artıq olmasını əldə etmək... "altmışıncılar"ın ən yaxşı əsərləri ilə nail olduqları ümumi cəhətlər, əsas xüsusiyyətlər idi".

**Ədəbiyyat qəzeti.- 2017.- 6 may.- S. 9.**